Ədalət.-2023.-8 noyabr,№43.-S.5.

*Asif Talıboğlu*

# DÜNYANIN BU ÜZÜ



Fikirləşdim ki, ”DÜNYANIN O ÜZÜ”nə boylanmamışdan öncə bu üzünə nəzər salım...

...Nəzər saldım və gözümə ilk dəyən Əməkdar jurnalist Faiq Qismətoğlunun ”DÜNYANIN O ÜZÜ” kitabı oldu...

...Şəhid haqqında yazılıb bu kitab. Daha doğrusu, bir şəhidə ürəklərdə abidə ucaldıldı.

O şəhid Füzuli rayonunun Böyük Bəhmənli kəndində sadə, zəhmətkeş bir kəndli ailəsində dünyaya göz açmışdı, böyümüşdü və əli silah tutanda Vətənin müdafiəsinə qalxmışdı.




Və şəhid Süleymanov Elçin Tehran oğlu haqqında yazılmız mükəmməl bir kitab kimi dəyərləndirdiyim bu kitabın təqdimetmə mərasimində iştirak edərkən bir daha əmin oldum ki, müəllif Faiq Qismətoğlu bu kitabı ərsəyə gətirmək üçün nə qədər mərhumiyyətlərə, nə qədər çətinliklərə, ürək ağrısına dözməli olub.

Faiq Fismətoğlunu coşqu ilə, dərin minnətdarlıqla qarşılayan Böyük Bəhmənli camaatının mərasimdə iştirak edən böyük əksəriyyətinin göz yaşardan, qəlb ağrıdan, dodaq titrədən çıxışı daxilən məni qürurlandırırdı...

Hər sözündə, hər sətrində bir nisgil, bir həsrət, bir yanğı hiss edilən ”DÜNYANIN O ÜZÜ” kitabı şəhid Elçin Süleymanovun 29 illik ömrünün bütün anlarına işıq salıb.

Bir-birindən şirin, bir birindən kövrək xatirələr bu kitabın ən böyük məziyyətlərindən biridir.

İstedadlı qələm sahibi, hər sözün üstündə yarpaq kimi əsən həmkarım, yaxın dostum və sirdaşım, gözəl yazar, Əməkdar jurnalist Faiq Qismətoğlu yaradıcılığının zirvəsi hesab etdiyim bu kitab haqqında saatlarla, günlərlə danışmaq, yazmaq olar. Çünki ”DÜNYANIN O ÜZÜ” kitabında yazılanlar bütövlükdə vətənpərvərlik hissinə, Vətən sevgisinə, qeyrət rəmzinə bələnib...

...Və Elçin Tehran oğlu Süleymanovun şəxsində 44 günlük Vətən müharibəsi Şəhidlərinə qoyulmuş bir əbədi abidədir.

Mən ”DÜNYANIN O ÜZÜ” kitabını oxuyarkən müəllifdən fərqli olaraq, dünyanın o üzünə boylanmadım. Şəhid Elçin Süleymanovu o dünyada yox, yaşadığımız gerçək dünyamızda axtardım və tapdım...

Bilirsiniz harda?

...Şəhidimiz Elçinin atası Tehran kişinin, anası Xalidə ananın, ömür-gün yoldaşı Aminə xanımın və şəhidin yadigarı, məsum bir qızcığazın gözlərində...